# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat

# M Ə R U Z Ə S İ

(Əvvəli 4-cü səhifədə).

Eyni zamanda Muxtar Abduyev küçəsində yerləşən 11 ədəd beşmərtəbəli yaşayış binalarında cari təmir işləri aparılır. Yaxın vaxtlarda şəhərin cənubundakı yeni yaşayş sahəsində, "28 May" və Vahid Qəhrəmanov küçələrində abadlıq işlərinin aparılmasına başlanılması nəzərdə tutulmuşdur.

**Hörmətli yığıncaq iştirakçıları!**

Rayon təhsil şöbəsi 2015-2016-cı dərs ilinin birinci yarısını yüksək nəticələrlə başa vurmuşdur. Ümumitəhsil məktəbləri üzrə müvəffəqiyyət faizi 99,5%, keyfiyyət göstəricisi 63,4% olmuşdur. Biliyi qiymətləndirilən 15790-nəfər şagirddən 4130-nəfəri əlaçı olmuşdur. Təhsil nazirliyinin yeni təlimatına əsasən ümumitəhsil məktəblərində I siniflərə qəbulla bağlı 2016-cı ilin fevral ayında qəbul komissiyaları yaradılmış, onların şəxsi işlərinin hazırlanmasına və valideynlər arasında maarifləndirmə işlərinin aparılmasına başlanılmışdır. 2016-2017-ci dərs ilindən başlayaraq rayon ərazisində hər il oktyabrın 1-nə kimi 5 yaşı tamam olan uşaqların 50-55% -nin hazırlıq siniflərinə qəbul olunması nəzərdə tutulmuşdur.

Şagirdlərə dərin və fundamental biliklərin verilməsi, istedadlı şagirdlərin müəyyən edilərək, onlarda tədqiqatçılıq meyllərinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin sırasında, fənn olimpiadalarının rolu əvəzsizdir. Bununla əlaqədar 18 yanvar 2016-cı il tarixdə 7 fənn üzrə keçirilən olimpiadanın I mərhələsində 423 nəfər məktəbli, mart ayının 13-də Şəki şəhərində keçirilən zona olimpiadasında isə 82 nəfər şagird iştirak etmişdir. Onların 16-nəfəri aprel ayında keçiriləcək respublika turuna vəsiqə qazanmışdır. Respublika turunda rayonun 10 tam orta məktəbindən 12 nəfər şagird, o cümlədən Azərbaycan dili fənni üzrə 4 nəfər, coğrafiya fənni üzrə 3 nəfər, riyaziyyat fənni üzrə 2 nəfər, biologiya, kimya, fizika fənnlərinin hər biri üzrə 1 nəfər şagird təmsil edəcəkdir ki, bu da ötən dərs ilindəkindən 5 nəfər çoxdur.

2015-2016-cıı dərs ilində ilk dəfə olaraq VII-VIII siniflər arasında riyaziyyat, fizika, kimya, biologiya fənləri üzrə təhsil nazirliyinin hazırladığı testlər əsasında üç mərhələli müsabiqə keçirilmiş və hər fənn üzrə ən yüksək bal toplayan 3 nəfər şagird xüsusi mükafatla təltif olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təhsil nazirliyinin sturukturu təkmilləşdirilərək respublika üzrə 15 regional maliyyə mərkəzi yaradılmışdır. Qəbələ rayonunun da daxil olduğu Oğuz Maliyyə Mərkəzinin fəaliyyətə başlaması ilə əlaqədar təhsil şöbəsinin bütün maliyyə resursları, maliyyə sənədləri, taarifləşmə cədvəlləri, müəllim və texniki işçilər haqqında məlumatlar yeni sistemə işlənilmişdir.

Qəbələ rayonunun mədəni-maarif müəssisələrində 2016-cı ilin birinci rübü ərzində bütün bayramlar, əlamətdar günlər və tarixi hadisələrlə əlaqədar tədbirlər keçirilmişdir.

Qəbələ Mədəniyyət Mərkəzində Azərbaycanın tanınmış fırça ustalarının, yerli rəssamların və dekorativ-tətbiqi sənətlə məşğul olan sənətkarların əl işləri nümayiş etdirilmiş, Qəbələnin sosial-iqtisadi inkişafına həsr olunmuş sərgi təşkil edilmişdir.

Qəbələ Dövlət Rəsm Qalereyasının yaradılmasının 10 illiyi ilə əlaqədar Qəbələ Mədəniyyət Mərkəzində təşkil olunmuş sərgidə 5 yerli rəssamın və 5 tətbiqi sənət ustasının əl işləri nümayiş olunmuşdur.

Bakıda Dənizkənarı Milli Parkda keçirilən ümumrespublika "Novruz tədbirləri"ndə rayonumuzda istehsal edilən sənaye və kənd təsərrüfatı məhsulları, eləcə də, kulinariya və xalq tətbiqi sənəti nümunələri sərgiləndirilmişdir.

Azərbayacan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən 2016-cı il "Multikulturalizm ili" elan olunması ilə əlamətdardır. Qəbələ Mədəniyyət Mərkəzində "Multikulturalizmin Azərbaycan modeli: dünyanın mükəmməl nümunəsi" mövzusunda konfrans keçirilmişdir. Konfransın sonunda Qəbələdə yaşayan azsaylı xalqların nümayəndələrinin və rayon mədəniyyət mərkəzində fəaliyyət göstərən bədii kollektivlərin ifasında konsert proqramı, eləcə də azsaylı xalqların təmsilçilərinin əl işlərindən ibarət sərgi təşkil edilmişdir.

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci il illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planına uyğun olaraq rüb ərzində rayon mədəniyyət və turizm şöbəsinin şəbəkələrində "Narkomaniyaya yox deyək", "Ağ ölüm" başlığı altında foto-stendlər, guşələr təşkil olunmuşdur.

Müasir turzm infrastrukturunun yaradılması ilə bağlı ilin I rübündə rayona 7600-dən yuxarı turist gəlmiş, onlara dünya standartlarına uyğun turizm xidməti göstərilmişdir.

2016-cı ilin birinci rübü ərzində rayonun səhiyyə müəssisələrində də xeyli işlər görülmüşdür. Mərkəzi xəstəxanada stasionar xəstələrin sayı 734 nəfər, cərrahi əməliyyatların sayı 20 olmuşdur. Bu müddət ərzində 292 doğuş baş vermişdir. Perinatal ölümlərin sayı 1, körpə ölümü (0-1 yaş) 1 nəfər olmuşdur. Neonatal ölüm olmamışdır. Xəstəxanaya 58.249 nəfər ambulator müraciət etmişdir. Hazırda rayon üzrə 174 vərəmli xəstə dispanser qeydiyyatındadır. 2016-cı ilin ötən dövrü ərzində 17 nəfərdə xəstəlik ilk dəfə aşkar edilmişdir.

Qeydiyyatda olan şəkərli xəstələrin sayı 1.497, ilk dəfə aşkar olunanalar 74 nəfərdir. Onkoloji xəstələrin sayı 528, ilk dəfə aşkar olunanlar 39 nəfər, ölənlər isə 23 nəfər olmuşdur. Eləcə də talasemiyalı xəstələrin sayı 288, hemofiliyalı xəstələrin sayı 6, ruhi xəstələrin sayı 850 nəfərdir. İlin əvvəlindən 14 ruhi xəstə qeydiyyata götürülmüşdür. Rüb ərzində 55 nəfər uşağa, 86 nəfər yuxarı yaş qrupuna ilkin əlillik, 22 nəfərə isə təkrar əlillik verilmişdir.

Məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulan 6800 nəfər obliqat qruplardan qrafik üzrə 2016-cı ilin I rübü ərzində 1617 nəfər müayinəyə cəlb edilmişdir. Onların 876 nəfəri təhsil, 454 nəfəri səhiyyə, 287 nəfəri isə digər sahələrdə çalışan işçilərdir.

Ölkə Prezidentinin göstərişinə əsasən respublikada 18 yaşından yuxarı olan əhalinin bu ilin fevral ayının 15-dən, may ayının 2-dək kütləvi tibbi müayinəsi keçirilir. Rayonda bu tədbirin mütəşəkkil keçirilməsi üçün RİH ilə birlikdə tərtib edilmiş qrafikə uyğun olaraq əhali mərkəzi xəstəxanada və müalicə diaqnostika mərkəzində müayinələrə cəlb olunur. Müayinələrin nəticəsinə əsasən 720 nəfərə ambulator müalicə təyin edilmiş, 109 nəfər stasionar müalicəsinə cəlb olunmuş, 182 nəfər isə Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

Qəbələ Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən yoluxucu xəstəliklərin qarşısının alınması və sanitar-profilaktik tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılmışdır. 2016-ci ilin birinci rübü ərzində hepatit «B»-yə qarşı 287 peyvənd, göyösgörək, difteriya və tetanusa qarşı 371 peyvənd, qızılça, parotit, məxmərəyə qarşı 751 peyvənd, poliomielitə qarşı 1704 peyvənd, pnevmoniya əleyhinə 1018 peyvənd aparılmışdır.

Profilaktik peyvəndlərin keyfiyyətli aparılması məqsədilə hər ayın 14 və 15-i vahid peyvəndləşmə günləri keçirilir.

Gigiyena və epidemiologiya mərkəzinin bakterioloji labaratoriyasında 17 su nümunəsi bakterioloji müayinə olunmuşdur. Rüb ərzində mərkəz tərəfindən 35 ümumtəhsil məktəbində, 20 uşaq bağçasında sanitariya müayinəsi aparılmışdır.

2016-cı ilin ötən dövründə müalicə-diaqnostika mərkəzinin konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 4760, endoskopiya kabinetində müayinələrin sayı 525, EKQ müayinələrinin sayı 1235, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 91, stasionar şöbəyə daxil olan xəstələrin sayı 251 nəfər, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 243 olmuşdur. Hemodializ şöbəsində 48 xəstədə 1164 hemodializ seansı aparılmışdır. Şüa-diaqnostika şöbəsində ultrasəs müayinələrinin sayı 4771, kompüter tomoqrafik müayinələrin sayı 314, rentgen müayinələrin sayı 1626, fizioterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 1770 olmuşdur. Kliniki laboratoriyada 2358 xəstədə 75638 müayinə aparılmışdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

Adamların sağlamlığının qorunması sahəsində idman mühüm əhəmiyyət kəsb edir. Qəbələ Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2016-cı ilin birinci rübü ərzində 18 tədbir həyata keçirilmişdir. Bunlardan 9 tədbir gənclərlə iş sahəsini, 9 tədbir isə kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə edir.

Həyata keçirilən tədbirlərin mahiyyəti baxımından əhəmiyyəti gənclər arasında dövlət siyasətinin təbliğinin düzgün təşkili, onların hüquq tərbiyəsi, cinayətkarlıq hallarına qarşı mübarizə, vətənpərvərlik tərbiyəsinin inkişaf etdirilməsi, gənclərin asudə vaxtlarının səmərəli təşkili, istedadlı gənclərin üzə çıxarılması, bədən tərbiyəsi və idman sahəsində isə yeniyetmə və gənc idmançıların aşkar olunması, idmanın kütləviliyinin təmin edilməsi, yüksək dərəcəli idmançıların hazırlanmasından ibarətdir.

Rüb ərzidə rayonumuzda keçirilən yarışlarda mükafata layiq yer tutan komandalar və idmançılarımız idarə tərəfindən diplom, medal və xatirə hədiyyələri ilə mükafatlandırılmışdır.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təqvim planına müvafiq olaraq keçirilən respublika tədbirlərində nümayəndələrimizin iştirakı təmin olunmuş və yüksək nəticələr əldə olunmuşdur.

2016-cı ilin birinci rübündə Qəbələ Olimpiya İdman Kompleksinin xidmətlərindən 1660 nəfər-gün istifadə etmişdir. Bir günlük xidmətlərdən istifadə edənlərin orta sayı 182 nəfər olmuşdur. Onlardan 47 nəfərə ödənişli, 135 nəfərə isə ödənişsiz əsasla xidmət göstərilmişdir. Kompleksdə 2 olimpiya idman növü üzrə (sərbəst güləş, boks) ödənişsiz seksiyalar fəaliyyət göstərir ki, bu seksiyalarda 45 nəfər məktəb yaşlı uşaq məşğul olur. Kompleksdə 120 nəfər idmançının qatıldığı respublika taekvando yarış keçirilmişdir.

2016-cı ildə Qəbələ Peşə Məktəbində 159 nəfər şagird təhsil alır. Məktəb sənayedə işləmək üçün çilingər-santexnik, traktorçu-maşinist, elektrik montyoru, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, kənd təsərrüfatı maşınlatının təmiri çilingəri, dərzi, kimyəvi-bakterioloji analiz laborantı peşələri üzrə ixtisaslı fəhlələr hazırlayır. Rayonda aparılan tikinti-quruculuq işlərində burada hazırlanan mütəxəssislərin əməyindən geniş istifadə olunur.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində 184 şagird təhsil alır. Hazırda istehsalat təlimində olan şagirdlərin dərs ilinin sonunda rayonun turizm obyektlərində işlə təmin edilməsi nəzərdə tutulmuşdur.

2016-cı ilin birinci rübündə Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi tərəfindən rayonun yaşayış məntəqələrində "Qızların təhsildən yayınmasının qarşısının alınması", "Erkən evlilik və onun fəsadları", "Narkomaniya-əsrin faciəsi" mövzularında mariflendirici tədbirlər keçirilmişdir. Tədbirlərdə 300 nəfərə yaxın iştirakçı olmuşdur. Mərkəzdə xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün toxuculuq, kompüter və dil kursları fəaliyyət göstərir.

**Hörmətli yığıncaq iştirakçıları!**

(Ardı 6-cı səhifədə).